9 iyun 2019-cu il RESPUBLİKA

# Professor Hafiz Paşayevin "Bir səfirin manifesti" kitabı özbək dilində çap olunub




**Azərbaycan Xarici İşlər nazirinin müavini, ölkəmizin ABŞ-dakı ilk səfiri, ADA Universitetinin rektoru, professor Hafiz Paşayevin "Bir səfirin manifesti" kitabı özbək dilində çap olunub.**

AZƏRTAC xəbər verir ki, kitab Azərbaycanın Özbəkistandakı səfirliyi və bu qurumun nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə Daşkənddəki "Niso Poligraf" nəşriyyatında nəfis şəkildə nəşr edilib.

Kitabı orijinaldan Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin müəllimi Eldar Asanov çevirib.

Yaxın günlərdə Daşkənddə kitabın təqdimatının keçirilməsi də nəzərdə tutulur.

**AZƏRTAC**